# “Kənd təsərrüfatı ili”nin uğurla yekunlaşacağına əminik

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda yenidən rəhbərliyə gəldikdən sonra əhalinin etibarlı ərzaq təminatı daim dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmuşdur. Ulu öndər respublikamızın daxili imkanları hesabına əsas ərzaq məhsulları ilə təminatına böyük önəm vermiş və bu istiqamətdə bir çox məqsədyönlü tədbirlər görmüşdür. Dahi rəhbərin təşəbbüsü ilə hələ ötən əsrin 90-cı illərində MDB məkanında ilk olaraq Azərbaycanda torpaq islahatlarının aparılması, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmlərinin formalaşdırılması, beynəlxalq təşkilatlarla bu sahədə əhəmiyyətli layihələrin həyata keçirilməsi, həmçinin 2001-ci ildə təsdiqlənmiş “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı” çərçivəsində görülmüş işlər nəticəsində ölkədə kənd təsərrüfatı və ərzaq məhsullarının artırılmasına nail olunmuşdur.

Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində hazırda ölkəmiz bir çox strateji ərzaq məhsulları üzrə tələbatını yerli istehsal hesabına ödəyir, hətta xarici ölkələrə məhsul ixrac edir.

Dövlət başçımız ərzaq təhlükəsizliyi ilə bağlı müvafiq hökumət qurumlarına daim xüsusi göstərişlər verir və qarşıda duran vəzifələri müəyyənləşdirir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində demişdir: “Bu il “Kənd təsərrüfatı ili” elan edilmişdir. Bu da bu sahəyə göstərilən diqqətin təzahürüdür. Sənaye, kənd təsərrüfatı hər bir ölkənin uğurlu iqtisadi inkişafını təmin edən sahələrdir. Xüsusilə Azərbaycan kimi ölkənin — bizim əhalimizin təxminən yarısı bölgələrdə, kəndlərdə yaşayır. Ərzaq təhlükəsizliyi bizim üçün prioritetdir. Çünki biz hələ tam şəkildə ərzaq təhlükəsizliyimizi təmin edə bilməmişik. Ancaq bu istiqamətdə böyük yol keçmişik. Çünki bu gün Azərbaycan özünü əsas ərzaq məhsulları ilə təmin edir. Düzdür, bəzi hallarda bu məhsulların komponentləri idxal edilir. Bu, əlbəttə, birinci mərhələ üçün hesab edirəm ki, məqbul variantdır. Ancaq çalışmalıyıq ki, Azərbaycanda istehsal olunan bütün ərzaq məhsullarının bütün komponentləri Azərbaycanda istehsal olunsun, toxumdan tutmuş ta hazır məhsullara qədər”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2015-ci il tarixli Sərəncamı ilə 2015-ci il ölkədə “Kənd təsərrüfatı ili” elan edilib. Bu il çərçivəsində müəyyən edilən hədəflərə çatmaqda aqrar sahədə çalışan təşkilatların üzərinə çox böyük məsuliyyət düşür. Bu məsuliyyəti dərindən dərk edən Dövlət Xidməti “Kənd təsərrüfatı ili”nin uğurla yekunlaşacağına əmindir. Onu da qeyd edim ki, bu ilin uğurlu olacağına “Kənd təsərrüfatı ili” çərçivəsində müəyyən edilmiş tədbirlərlə yanaşı, Prezident İlham Əliyevin imzaladığı silsilə Dövlət proqramları da tam zəmanət verir. Buna misal olaraq icrası tamamlanan və ya davam edən, ayrı-ayrı dövrləri əhatə edən yoxsulluğun azaldılması və davamlı inkişaf, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları, xüsusilə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nı göstərmək olar.

Adını qeyd etdiyimiz bu proqramın 5.6-cı hissəsinin “Baytarlıq xidmətinin səmərəliliyinin artırılması tədbirləri” bəndində baytarlıq-sanitariya sahəsində qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması, kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı ilə bağlı tədbirlərin həyata keçirilməsi, özəl baytarlıq xidmətinin inkişaf etdirilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi, baytarlıq-sanitariya obyektlərinin modernləşdirilməsinin təmin edilməsi, baytarlıq laboratoriyalarının maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tələblərə cavab verən sahə baytarlıq məntəqələrinin yaradılması və onların avadanlıqlarla təmin edilməsi, eləcə də heyvanların təhlükəli xəstəliklərdən qorunması və epizootiya əleyhinə mübarizə tədbirlərinin gücləndirilməsi kimi qlobal məsələlər öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 aprel 2015-ci il tarixli Sərəncamı ilə təsdiqlənən “2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nda Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti ilə əlaqəli bir sıra məsələlər öz əksini tapıb. Tədbirlər Planına Respublika Baytarlıq Laboratoriyasının yenidən qurulması, zona baytarlıq laboratoriyalarının müasir standartlara uyğunlaşdırılması, rayon baytarlıq idarələrinin avadanlıq və preparatlarla təchizatının yaxşılaşdırılması, mobil səyyar baytarlıq-sanitariya ekspertiza laboratoriyalarının alınması, Beynəlxalq Epizootik Büronun standartları əsasında heyvanlarda brusellyoz xəstəliyinə qarşı mübarizə proqramının tətbiqinin davam etdirilməsi, müasir tələblərə cavab verən heyvan kəsimi məntəqələri şəbəkəsinin genişləndirilməsi kimi vacib məsələlər salınıb.

Bu məsələlərin yerinə yetirilməsinə ciddi fikir verilir. Bu isə son nəticədə sağlam və rəqabətqabiliyyətli heyvan mənşəli məhsulları emal edən iri kənd təsərrüfatı müəssisələri ilə birbaşa əlaqələrin yaradılmasına, ölkənin baytarlıq nəzarəti xidmətinin maddi-texniki bazasının möhkəmlənməsinə və respublikada saxlanılan heyvanların sağlamlığının, epizootik durumunun təmin edilməsinə təkan verməklə 2015-ci il üçün müəyyən edilmiş əsas hədəflərə çatmaqda stimullaşdırıcı rol oynayacaqdır.

Şübhəsiz, respublikamızda aqrar sahənin mühüm bölmələrindən olan baytarlığın inkişaf etdirilməsi də dövlət rəhbərliyinin və hökumətin daim diqqət mərkəzindədir. Baytarlıq xidmətinə olan diqqət və qayğı ilbəil artır. Hazırda dövlətimizin dəstəyi və nazir Heydər Əsədovun şəxsi təşəbbüsü ilə Dövlət Baytarlıq Nəzarəti Xidmətinin inzibati binasında aparılan yenidənqurma, regionda analoqu olmayan “Baytarlıq şəhərciyi”nin yaradılması işlərinə başlanılmışdır. Bu, ölkə rəhbərliyinin və cənab nazirin baytarlıq sahəsinə diqqətinin bir daha bariz nümunəsidir.

Cari ilin 3 ayı ərzində Dövlət Baytarlıq Nəzarəti Xidmətinin tabeliyində olan təşkilatlar tərəfindən 2015-ci ilin 3 ayı ərzində qarayara xəstəliyinə qarşı 2464920 baş iribuynuzlu, 918951 baş xırdabuynuzlu, 1630 baş donuzda və 95555 baş təkdırnaqlı heyvanda, 97 baş dəvədə, leptospiroza qarşı 40755 baş iribuynuzlu heyvanda, 66880 baş xırdabuynuzlu heyvanda, qoyunların çiçəyinə qarşı 704543 baş davarda, həmçinin quşların nyukasl xəstəliyinə qarşı 1205,6 min baş quşda “H” vaksini ilə, 11356,4 min baş quşda “La-Sota” vaksini ilə profilaktik peyvəndləmələr aparılmışdır.

Həssas heyvanlar arasında brusellyoz xəstəliyini aşkar etmək, xəstəliyin yayılmasının qarşısını almaq məqsədi ilə 2015-ci ilin 3 ayı ərzində 542070 baş iribuynuzlu, 68528 baş xırdabuynuzlu heyvanlardan, o cümlədən 8632 baş qoçdan, eləcə də epididimit xəstəliyinə görə 4931 baş törədici qoçdan qan nümunəsi alınaraq seroloji müayinə edilmişdir. Nəticədə 622 baş iribuynuzlu, 156 baş xırdabuynuzlu heyvanın brusellyozla, 1 baş qoçun epididimitlə xəstə olduğu aşkar edilmişdir. Xəstə olduğu aşkar edilmiş iri və xırdabuynuzlu heyvanlar brusellyozun və epididimitin təlimatlarına uyğun zərərsizləşdirilərək təsərrüfatlardan çıxarılmışdır.

Bununla yanaşı, cari ilin ötən 3 ayı ərzində vərəmə görə 164157 baş iribuynuzlu heyvan diaqnostik müayinəyə cəlb olunmuş və yoluxma aşkar edilməmişdir.

2015-ci ilin 3 ayı ərzində respublikamıza 951 ton balıq konservi, 1140 ton xama, 911 ton quş əti, 1162 ton qatılaşdırılmış süd, 918 ton quru süd, 1156 ton mayonez, 10660484 ədəd damazlıq yumurta, 1292505 baş bir günlük cücə, 1418 ton pendir, 3265 ton süd məhsulları, 55 ton süd, 724 ton donuz əti, 198 ton donuz piyi, 1438 ton balıq, 56551 ton kərə yağı, 2271 ton camış əti, 863 ton qaramal əti, 79 ton quş əti sosiskası, 57 ton quş əti kolbasası, 12297 kq təbii bal, 579 ton it-pişik yemi və s. baytarlıq nəzarətində olan məhsullar idxal olunmuşdur.



Həmin məhsullar Respublika Baytarlıq Laboratoriyasında bakteroloji, kimyəvi-toksikoloji, radioloji müayinələrdən keçirilmiş və qida üçün yararlılığı müəyyən edilərək istifadəyə verilmişdir.

Respublikamızdan 263977 ədəd iribuynuzlu, 298 min ədəd xırdabuynuzlu heyvan dərisi, 29 ton qoyun bağırsağı, 3055 ton süd məhsulları, 50 ton iri və xırdabuynuzlu heyvanın daxili orqanları, 6500 baş diri quş və s. baytarlıq nəzarətində olan məhsullar ixrac edilmişdir.

Quş qripi xəstəliyi qarşısının alınması ilə əlaqədar cari il aprelin 6-dan ilk seromonitorinqə başlanılıb. Bununla əlaqədar götürülən 34 baş ev və çöl quşlarının patoloji materialı, 1988 baş ev qan nümunələri Respublika Baytarlıq Laboratoriyasında müvafiq müayinələrdən keçirilib. Aparılan müayinələrin nəticələrinə görə ölkə ərazisində quş qripi aşkar edilməmişdir.

Başa vurduğumuz 3 ay ərzində də 196761 baş sahibli həyət itində peyvəndləmə tədbiri aparılmış və quduzluq xəstəliyini aşkar etmək üçün 9 nümunənin laboratoriya müayinəsi aparılmışdır. Nümunələrin 9-u da müsbət olmuşdur. Şübhəsiz, müsbət olan, yəni xəstəlik törədicisi aşkar olunan nümunələrin göndərildiyi ərazilərdə lazımi profilaktik tədbirlər həyata keçirilmiş, vaxtında xəstəliyin yayılmasının qarşısı alınmışdır.

Hazırda ölkədə quduzluqla əlaqədar aparılan tədbirlər yalnız sahibli həyət itlərini əhatə etmir. Eləcə də bu tədbir təbiətdə olan həssas vəhşi və sahibsiz heyvanlar arasında da aparılır. Qeyd edim ki, bu tədbirin təşəbbüskarı kənd təsərrüfatı naziri Heydər Əsədovdur və onun bilavasitə yaxından köməkliyi ilə Belarusdan 50 min doza miqdarında oral peyvənd alınmışdır. Martın 16-dan başlayaraq ölkəmizdə ilk dəfə olaraq vəhşi və sahibsiz heyvanlar arasında oral peyvəndləmə tədbirinə başlanılmışdır. Pilot layihə olaraq peyvəndləmə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonlarının meşə və meşəətrafı ərazilərində, eləcə də Abşeron yarımadası və Bakıətrafı ərazilərdə aparılıb.

Bu gün Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti BEB, FAO, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, Avropa İttifaqı, ABŞ-ın DTRA və başqa beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıqda çalışır və bu təşkilatlar baytarlıq xidmətinin inkişafında mühüm rol oynayır. Məsələn, ABŞ-ın Müdafiə Nazirliyinin layihəsi üzrə diaqnostik laboratoriyaların və epidemioloji nəzarət stansiyalarının tikintisi və təchizatı həyata keçirilir, həmçinin yeni referents laboratoriya tikilir, mütəxəssislərin treninqləri daima aparılır. ABŞ Təhlükənin Azaldılması Proqramı çərçivəsində həyata keçirilən Xəstəliklərə Elektron Nəzarət Sistemi (EİDSS) 78 baytarlıq və zona baytarlıq laboratoriyalarında qurulmuşdur. Ötən il noyabr ayının 17-dən bütün baytarlıq təşkilatları EİDSS-6 elektron versiyasına keçmişdir. Vet-1 və Vet-1 A hesabat formalarının həmin sistemdə rəsmi tətbiqinə başlanmışdır. Bütün bunlar baytarlıq mütəxəssislərindən ibarət yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır.

Ölkəmizin kənd təsərrüfatı sahəsinin inkişafına yönəldilmiş tədbirləri həyata keçirməklə, respublika ərazisini heyvan xəstəliklərindən, insan və heyvan üçün ümumi olan xəstəliklərdən qorumaqda, dövlət və dövlətçiliyimizə qulluq göstərməkdə öhdəmizə düşən şərəfli vəzifələrin layiqincə yerinə yetirilməsinə bundan sonra da səy göstərəcəyik.

**Sialə RÜSTƏMOVA,**
**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rəisi.**